# ANAMIN NAĞILLARI

## Dünyanın ən yaxşı nağılları və oyunları

## İLİN HƏR GÜNÜ ÜÇÜN 238 NAĞIL VƏ 365 MARAQLI OYUN



Tərcüməçi: Aygün Çırpanlı

QANUN NƏŞRİYYATI

Kitabda dünyanın ən yaxşı nağılları, 365 oyun
(stolüstü, təlim, motivasiya, hərəkət oyunu) və çalışma verilib.
Valideynlər ilboyu hər gün uşağını yeni oyunla əyləndirib,
gecələr ona sevimli nağıllardan birini oxuya bilərlər.



**МАМИНЫ СКАЗКИ**
**ANAMIN NAĞILLARI**


Janr: nağıl
Yaş qrupu: 4+
Ölçü: 210x280 mm
Cild: qalın
Səhifə sayı: 392

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Aygün Çırpanlı
Redaktor: Ceyran Abbasova
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing

ISBN 978-9952-36-808-6



© Qanun Nəşriyyatı, 2020; 2026
© Издательсво ООО “ОЛИСС”, 2009

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
«Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında»
Azərbaycan Respublikasının Qanununa ziddir.

# ÖN SÖZ



Bu kitab qayğıkeş ata və ana, baba və nənə, böyük qardaş və bacılar, bağça müəllimləri və ailə mürəbbiyələri üçün bir vəsaitdir.

Bayırda yağış yağanda, mətbəxdə məşğul olduğunuzda, qonaq gözlədiyinizdə və ya gəzintidə olduğunuzda körpəni necə əyləndirməkdə, nə ilə maraqlandıra biləcəyinizdə çətinlik çəkirsiniz? Gecə yatmağa hazırlaşarkən, ona hansı nağılı oxuyacağınıza qərar verə bilmirsiniz? Elə isə kitabımızdan faydalanmağa tələsin. Kitabı günbəgün vərəqlədikcə, körpənizi yeni oyunla əyləndirə və ya yatmazdan əvvəl ona maraqlı dünya nağıllarından birini söyləyə biləcəksiniz. Nağılın həcmi böyükdürsə, səhəri gün də körpənizlə birgə hadisələrin inkişafını, yadda qalan məqamları xatırlamaqla davam edə bilərsiniz. Beləcə, uşaqlardan xəbərsiz, onların yaddaşı ilə nitqini inkişaf etdirmiş olacaqsınız. Övladınız isə nağılın davamını eşitmək üçün daha erkən yatmağı düşünəcək. Bu kitabla siz uşaqlarınızı nəsildən-nəslə keçən əsrarəngiz dünya nağılları ilə tanış etmək imkanı əldə edirsiniz. İnsana xeyri-şəri, günahı-savabı, şəfqəti, ədaləti tanıtdıran məhz nağıllardır.

Kitabda təqdim olunmuş oyun və məşğələlər uşaqların dünyagörüşü ilə ətraf aləm haqqında bilgilərini zənginləşdirməklə yanaşı, həm də məntiq və riyaziyyatın əsaslarını öyrənmələrinə, füsunkar yaradıcılıq aləminə daxil olmalarına, yeni dostlar tapmalarına, böyük kollektivdə özlərini sərbəst və rahat hiss etmələrinə yardımçı olacaq. Hərəkətli komanda oyunları qarşılıqlı yardıma, məsuliyyətə alışdırmaqla birgə, uşaqların fiziki inkişafına da müsbət təsir göstərəcək.

Yağışın yağması və ya körpənizin nasazlaması üzündən kitabda təqdim olunmuş oyunlardan hər hansısa biri uyğun olmazsa, onu başqa bir zamana saxlayın və daha əvvəl təklif olunan oyunlardan birini seçin.

Kitabımızı ilin hansı fəslində kəşf etməyinizin isə əsla əhəmiyyəti yoxdur – burada istər həzin payız, istər uzun qış axşamları, istərsə də günəşli bahar və qızmar yay günləri üçün hesablanmış istənilən oyun, məşğələ, nağıl və s. kimi maraqlı bilgilər vardır.

Kitabımız uşaqlarla ünsiyyətdə ən önəmli olana – onlarla dostluq qurmağınıza bir vasitədir. Sadə, anlaşılan şəkildə təqdim edilmiş inkişafetdirici və hərəkətli oyunlar, növbənöv dünya nağılları və rəngarəng şəkillər mütləq körpənizin ürəyincə olacaq. Kim bilir, bəlkə də bu vəsait uzun illər onun sevimli kitablarından birinə çevriləcək.



# Qış



# ŞAXTA BABA

Biri vardı, biri yoxdu, ikinci arvadı ilə yaşayan bir kişi vardı. Onların hərəsinin bir qızı vardı. Kişinin qızı xeyirxah və zəhmətsevər idi, evin bütün işlərini görürdü. Qarının qızı isə qəzəbli və tənbəl idi. Elə hey sobanın bir kənarında oturub kömbə yeyirdi.

Ögey ana qocanın qızını heç sevmirdi. Qız nə etsə də ögey anasını razı sala bilmirdi. Bir gün qarı qocaya hökm etdi ki, qızı meşəyə aparıb şam ağacının yanına qoysun. Qoca xeyli qəmə batdı, amma bu hökmə əməl etməkdən başqa çarəsi də yox idi.

Qız şam ağacının altında oturmuşdu, əynindəki paltar köhnə-kürüş olduğundan üşüyürdü. Birdən gördü ki, Şaxta baba ona tərəf gəlir. O soruşdu: "Soyuqdurmu sənə, ay qız, üşüyürsənmi, ay gözəl?" "Yox, Şaxta baba, soyuq deyil, amma sən yəqin lap donmusan, mənim əlcəklərimi götür" – deyə qız cavab verdi. "Görürəm ki, sən yaxşı qızsan, buna görə sənə hədiyyə verəcəyəm" – deyib Şaxta baba ona sandıqlarla yüklənmiş üç at bağışladı.

Qız zərxara və qızılla dolu sandıqlarla öz kəndinə qayıtdı. Bunu görən ögey ana qocaya əmr etdi ki, onun qızını da isti geyindirib meşəyə aparsın. Qoca belə də etdi. Tənbəl qız şam ağacının altında oturarkən Şaxta baba ona yaxınlaşdı və soruşdu: "Sənə soyuq deyil ki?" "Nə baxırsan, qoca, görmürsən donmuşam?! Tez ol hədiyyələrini ver, evə getmək istəyirəm!" – tənbəl qız dedi. Şaxta baba bu qıza da sandıqlarla dolu atlar verdi. Qız evə gələn kimi atlar pərən-pərən düşdü. Sandıqlar isə kömürlə ağızbaağız dolu idi.

*Rus xalq nağılı*



*OYUN: "AYININ MEŞƏSİ"*

**Meydançanın bir tərəfində dairə var – ("ayının mağarası"), digər tərəfində isə xətt var – (uşaqların evi). Uşaqlar evdən çıxıb bu sözlərlə mağaraya doğru gedirlər: "Ayının meşəsindən göbələk, giləmeyvə dərəcəyik. Ayı hirslənib bizə acıqlanacaq".**

**Bu sözlərdən sonra "ayı" mağaradan çıxıb uşaqlara hücum edir. Uşaqlar evlərinə qaçmağa cəhd edirlər. 4-6 oyunçu yaxalandıqdan sonra yeni "ayı" təyin olunur. Digərləri isə yenidən oyuna başlayır.**

# SİÇAN BALASININ SƏYAHƏTİ

Günlərin bir günü siçan balası səyahətə yollandı. O, səhər tezdən çıxıb axşam qayıtdı və dedi:

– Sən demə ən güclü, ən diribaş və ən qoçaq elə mən özüməm.

– Sən bunu necə öyrənə bildin ki? – nənəsi – qoca siçan soruşdu.

– Yuvadan çıxdım, getdim, getdim və dənizə çatdım, – siçan balası danışmağa başladı. – Çox böyük bir dəniz gördüm, amma mən qorxmadım və onu üzüb keçdim.

– Mən o dənizi görmüşəm, – nənəsi dedi. – Bu yaxınlarda oradan maral keçib, onun ayağının izində isə su göllənib.

– Günün altında özümü qurutduqdan sonra bir az da yol getdim, – siçan balası sözünə davam etdi. – Çox hündür bir dağa rast gəldim. “Dağın ətrafına fırlanmayacam ki” – deyə düşündüm. Qaçaraq onun üstündən hoppandım.

– Sənin o dağını da görmüşəm, – nənə gülümsədi. – Su ilə dolu çalanın arxasında torpaq təpəcik var.

– Bir az da getdim, gördüm ki, biri ağ, biri də qonur rəngdə iki heyvan dalaşır, – siçan balası danışdı. – Anladım ki, bunlar ayıdır, amma qorxmadım, onların arasına atıldım və hərəsini bir tərəfə tulladım.

– Sənin o ayıların güvə və milçəklərdir, – nənəsi bir qədər düşünüb dedi.

– Belə çıxır ki, mən güclü, zirək və cəsur deyiləm? – siçan balası ağlamağa başladı.

Amma nənəsi gülüb ona təsəlli verdi:

– Sən axı çox balacasan. Əgər sən bütün bunlardan qorxmamısansa, deməli, doğrudan da sən ən güclü, ən qoçaq və ən zirəksən.

*Eskimos nağılı*



***OYUN: “QUYRUQDAN TUT”***

**Bir idarəedici canavar seçilir. Digər oyunçular isə keçilərdir. Bütün oyunçular dairə vurub dayanır. Ortada isə özünü yuxululuğa vuran canavar dayanır. Keçilər hansısa bir mahnını oxuyaraq tədricən dairəni daraldır və canavara toxunmaq istəyirlər. Canavar qəfil yerindən qalxıb keçiləri tutmağa başlayır. Ələ keçmiş keçi canavar olur və oyun davam edir. Canavar ona hansısa keçi toxunan kimi onları tutmağa başlayır.**

# ZOLUŞKA

Varlı bir kişinin arvadı ölür və o, ikinci dəfə evlənir. Onun birinci arvadı çox xeyirxah, ikinci arvadı isə pis və öcəşkən qadın idi.

Kişinin mehriban və mülayim bir qızı vardı. İkinci arvadının isə iki tənbəl qızı vardı.

Yazıq qızı evdə ən kirli və ağır işləri görməyə məcbur edirdilər. O, nə qədər incisə də, atasına belə şikayət etmirdi. Axşamlar işlərini bitirdikdən sonra sobanın yanındakı küllə[1] dolu yeşiyin üstündə oturardı. Buna görə də bacıları ona Zoluşka deyərdilər.

Bir dəfə kralın oğlu böyük bal təşkil edir və bütün zəngin insanları arvadları və qızları ilə birgə ora dəvət edir.

Zoluşkanın bacıları da dəvət alır. Onlar çox sevinir və ora geyinmək üçün paltar seçməyə başlayırlar. Yazıq Zoluşkanın işi daha da artır: bacılara paltar ütüləməli, lentləri və bəzək əşyalarını seçməli idi.

– Zoluşka, istərdin sən də bala gedəsən? – Zoluşka bacılarının saçını darayarkən onlar soruşdu.



***OYUN: "JESTLƏRİN DİLİ"***

**Uşağa təklif edin ki, əl hərəkətləri və digər jestlərdən ibarət kodlaşdırılmış bir dil işləyib hazırlasın. Sadədən başlayın, "hə" və ya "yox" kimi kəlmələri işarələrlə əvəz edin. Məsələn, əgər burnunuza toxunursunuzsa, bu "hə", qulağınıza toxunursunuzsa, "yox" mənasını verir. "Hə" və ya "yox" cavabına uyğun bir sıra suallar verin. Məsələn: "Sənin adın Mişadır?" "Sən konfet xoşlayırsan?"**

**Sonra tapşırığı çətinləşdirin. Bəzi sadə sözlərin əvəzinə bədənin müxtəlif hissələrini göstərsin. Məsələn, dirsəyini göstərmək "masa", əlini iki dəfə yelləmək "kitab" mənasını versin. Siz belə deyə bilərsiniz: "Xahiş edirəm, yaşılın (əlinizi iki dəfə yelləyin) (dirsəyinizi göstərib) üstünə qoy".**

**Görün siz və övladınız bu tipdə neçə işarə fikirləşib tapa bilər.**

[1] Kül – rus dilində зола sözündən

– Eh, bacılar, heç məni bu donla və bu başmaqlarla saraya buraxarlar?!

Zoluşkanın analığı və bacıları onu götürmədən bala getdilər. Qız uzun müddət onların arxasınca baxandan sonra hönkürdü. Elə bu vaxt xaç anası ona baş çəkməyə gəldi. O, pəri idi və hər şeyi sözsüz başa düşürdü.

– Nə olub sənə, qızım? – o soruşdu. – Sən də bala getmək istərdinmi?

– Hə, – Zoluşka dedi.

– Əgər istəyirsənsə, deməli, gedəcəksən, – xaç anası gülümsədi. – Bostana get və mənə böyük bir balqabaq gətir!

Zoluşka xaç anasının tapşırığını yerinə yetirdi. Xaç anası heç nə demədən sehrli çubuğu ilə balqabağa toxunaraq onu gözəl bir faytona çevirdi.

Sonra pəri altı siçanı alt boz ata, siçovulu isə arabaçıya çevirdi.

– Bəs don? – Zoluşka soruşdu.

Pəri heç nə demədi, yalnız sehrli çubuğu ilə Zoluşkanın paltarına toxundu. Qızın köhnə paltarı qızılı zərxaradan təmtəraqlı dona çevrildi. Pəri Zoluşkaya büllur ayaqqabı da hədiyyə edib onu faytona oturtdu və qızı xəbərdar etdi ki, gecə yarısına qədər qayıtmalıdır.

– Əgər bircə dəqiqə belə geciksən, – pəri dedi, – sənin faytonun yenidən balqabağa çevriləcək, qəşəng paltarın isə əvvəlki halına qayıdacaq.

– Mən gecikməyəcəm! – deyib Zoluşka saraya yollandı.



***OYUN: "SEHRLİ ÇUBUQ"***

**Sehrli çubuq hər bir sehrbazın əvəzolunmaz əşyası sayılır. Uşağa sehrbaz olmağı təklif edin. Sehrli çubuğu isə hər hansı adi plastmas çubuq ola bilər. "Sehrli" çubuğu yun parçaya və ya saçınıza sürtüb uşağa bir neçə fokus göstərin. Sürtülmüş çubuğu balaca bir kağız parçasına toxundurun. Kağız parçası çubuğa yapışacaq. Çubuğu nazik su şırnağına tutanda o da kənara çıxacaq.**

**İndi uşaq özü "möcüzələr yarada biləcək". Bu vaxt ona sehrli sözləri deməyi təklif edin. Hansını? Qoy özü fikirləşsin.**

Zoluşka saraya çatıb pilləkənlə yuxarı qalxdı. Gözəl geyinmiş çoxsaylı insanları görəndə quruyub qaldı. Şahzadə özü əlini uzadıb onu zala apardı. Qonaqlar bu gözəl naməlum qıza baxa-baxa onlara yol verməli oldular.

Şahzadə Zoluşkanı ən yaxşı yerdə otuzdurandan sonra rəqsə dəvət etdi. Qız elə gözəl rəqs edirdi ki, hamı heyranlıqla ona baxırdı.

Zoluşka şahzadə ilə özünü o qədər yaxşı hiss edirdi ki, dünyada hər şeyi unutmuşdu, yalnız saatlar gecə yarısını göstərəndə birdən ayıldı. O, heç bir izahat vermədən öz faytonuna tərəf qaçdı, şahzadə də onun arxasınca getdi. O, qıza çata bilməsə də, pilləkəndə kiçik büllur ayaqqabı tapdı. O, ayaqqabını ehtiyatla əlinə götürdü. Gözətçilərdən gözəl şahzadə qızın hara getdiyini görüb-görmədiklərini soruşdu. Amma heç kim heç bir şahzadə görməmişdi. Yalnız sarayın yanından qaçan yoxsul bir qız görmüşdülər.

Zoluşka qaça-qaça evə gəldi. Onun bal paltarı köhnə dona çevrilmişdi, üstündəki bütün gözəlliklərdən yalnız kiçik büllur ayaqqabı qalmışdı.

Tezliklə bacıları evə gəldi. Onlar dayanmadan düz saat 12-də saraydan qaçan gözəl şahzadə haqda danışırdılar.

Bir neçə gündən sonra şahzadənin əmri ilə elan olundu ki, büllur ayaqqabı hansı qızın ayağına olsa, şahzadə onunla evlənəcək.



*OYUN: "CƏHD ET, ƏLDƏ ET"*

**Oyunçular bərabərsaylı iki komandaya bölünürlər. Meydançanın ortasında müxtəlif hündürlükdə üç rəngli lent asılır. Oyunçuların tapşırığı ən hündürdən asılmış ən qısa lenti tutmaqdır. Onu kim tutsa, üç xal qazanır. Kim ortadakı lenti götürə bilsə, iki xal qazanır. Kim ən uzun lenti tuta bilsə, bir xal qazanır.**

**Daha çox xal qazanan komanda udur. Hər oyunçunun bir dəfə tullanmaq şansı var.**